# Xatirələrdə yaşayan ömür

(Əvvəli 7-ci səhifədə).

əməyi, zəhməti, qayğıkeş ata kimi nəsihəti və tövsiyəsinin bu gün nəticəsini hər kəs aydın şəkildə görür.

Yetirdiyi övladlar bu gün də dövlət üçün, cəmiyyət üçün fayda verən müxtəlif peşə sahibləridir. Onlar peşəsini ürəkdən sevən, məsuliyyətli hər kəsə nümunə ola biləcək vətəndaşlardır. Bu gün Abduləli müəllimin həyat yolu, fəaliyyəti, övladlarının tutduğu mövqe, cəmiyyətdə vətəndaş kimi davranış və mədəniyyətdə özünü aydın şəkildə biruzə verməkdədir. Vətən üçün layiqli övlad yetişdirmək, həyatda insan kimi insan olmaq prinsipi Abduləli müəllimin həyat amalı olmuş və bu gün özü dünyada olmasa belə sahibi olduğu nəslin nümayəndələri onun adını, əməlini yaşatmaqdadır. Bir sözlə Abdüləli müəllimin izi yaddaşlarda, əməlləri övladlarının timsalında görünür.

Dövlət üçün, xalq üçün, cəmiyyət üçün böyük faydası olan ziyalıların ömür yoluna işıq salmaq, gələcək nəsillərə çatdırmaq onların həyat və fəaliyyətindən bəhrələnmək üçün Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyi əzmlə çalışır. Abduləli müəllimin həyat yoluna, pedaqoq kimi fəaliyyətinə bir daha nəzər salmaq, xatirəsini yad etmək məqsədilə muzey mədəni elmi müəssisə olaraq xatirə saatı təşkil etmişdi. Tədbirə Abduləli müəllimin övladları, yetişdirdiyi ziyalılar, kənd ictimaiyyətindən nümayəndələr və vaxtilə çiyin-çiyinə çalışan həmkar yoldaşları, bir sözlə adını bilən, sağlığında tanıyan hər kəs iştirak edirdi. Tədbir xoş xatirələrin axarında, yaddaşların izi ilə həyata keçirildi. Vaxtilə həmkar olan müəllim yoldaşları, dərs dediyi şagirdlər, övladları, qohum-qonşular, nəvələri Abduləli müəllim haqqında şirin xatirələrini söylədi. Çıxış edənlərin xatirələrindən bir daha göründü ki, Abduləli müəllim sağlığında insanlığın ali zirvəsinə ucalmış bir şəxsiyyət kimi bu gün öz adının şərəfinə ləyaqətinə möhür vurdu. Onun haqqında çox söz deyildi. Lakonik şəkildə bu kəlmələr onun əsl insani keyfiyyətlərini ifadə edir: Nəsildən müdrik ağsaqqal, ailədən qayğıkeş ata, məktəbdən gözəl ziyalı, kənddən əsl insan getdi.

Abduləli Osmanov 1930-cu il 27 iyul tarixində Kiçik Pirəlli kəndində anadan olmuşdur. Cəmi 54 il ömür sürməsinə baxmayaraq rayonumuzun maarif, elm-təhsil aləmində yetərincə əməli fəaliyyəti ilə böyük nüfuz qazanmışdır. Rayonun Soltannuxa, Zalam və Pirəli kəndlərində müəllim kimi böyük əməyi olmuşdur. Bir sözlə müəllim adını şərəflə daşıyan Abduləli müəllim bir insan kimi hər kəsin sevimlisi olmuşdur. Vaxtilə sağlığında "Qalibiyyət" qəzetində Abduləli müəllim haqqında yazılan materiallara da diqqət yetirdik. Bu insan tək müəllim kimi deyil sadə, səmimi, mədəni davranışı ilə hər kəsin sevgisini qazanıb. Əməyi, fədakarlığı, peşəsinə vurğunluğu ilə dövlət üçün, xalq üçün əvəzedilməz vətəndaş, təvazökarlığı, səmimiyyəti, eyni zamanda işinə məsuliyyəti ilə cəmiyyət içərisində sevimli,seçilmiş insan olub. Bu gün onun nəticəsidir ki, hər kəs Abduləli müəllim haqqında böyük ürəklə, sevgi ilə danışır. Bu sevgini, hörməti, ürəklərin hərarətini onun ünvanına deyilən sözlər bir daha təsdiq edir. Belə insanlar heç vaxt ölmür, onlar dillərin, düşüncələrin, xatirələrin, yaddaşların əbədi qonağına,sakininə çevrilir, xatirələrdə yaşayan ömür sahibi olurlar.

**İlhamə SEYİDOVA,**
**«Qəbələ»nin ştatdankənar müxbiri.**

# Tariximizin qanlı səhifəsi

1918-ci il 31 mart günü düşmən siyasəti və xislətinin tarixə məlum üzüdür. Mərd, igid oğulların, ləyaqətli övladların yurdu olan Azərbaycan daim düşmənin naxələfliyinə, satqınlığına məruz qalmışdır. Azərbaycan torpaqlarında özlərinə sığınacaq tapan ermənilər neçə-neçə xain planla, bədxah amalla vətənimizə üz tutmuşdular. Azərbaycan torpaqlarında dərin kök salan ermənilər daha sonra qırğınları, soyqırımları, kütləvi talanları törətməklə hiyləgər, qəddar simalarını açıq şəkildə göstərdilər. 1918-ci il 31 mart tarixi buna bariz nümunədir. Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, insanlar işgəncələrə məruz qalmış, onlara qəsdən fiziki qüsurlar yetirilmişdir. Yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə yeksan edilmişdir. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirib, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçiriblər.

1918-ci il mart qırğını XX əsrin əvvəllərində xalqımızın yaşadığı Azərbaycan tarixinin ən faciəli,qara səhifələrindən biridir. Azərbaycan torpaqlarında məskunlaşdıqdan sonra işğalçılıq niyyətlərini həyata keçirmək və torpaqlarımızın hesabına "Böyük Ermənistan" utopik fikirlərini reallaşdırmaq üçün ermənilər daim xalqımızın başına fəlakətlər gətirmişdir. Ən böyük fəlakətin əsası I Pyotrun dövründə ermənilərin Qafqaza köçürülməsi ideyasından qaynaqlandı. Ruslara mənfur, çirkin əməlləri həyata keçirmək üçün elə ermənilər kimi xain, qəddar, ikiüzlü terrorçular yardım edə bilərdi.

Tarixi faktlara diqqət yetirək. 1802-ci il Çar I Aleksandr N.D.Sisianova məktubunda bildirmişdir: "Nə olursa olsun ermənilərdən Azərbaycanın bu və ya digər xanlıqlarında istifadə olunmalıdır. Hələ təkcə 1828-ci ilin 4 ayı ərzində Azərbaycan ərazisinə xüsusilə də Naxçıvan, İrəvan, Qarabağ xanlıqlarına 8.429 erməni ailəsi köçürüldü. Çünki ruslar ermənilərin "fədakarlığına" əmin idilər. Ermənilərin əsas ideyası "Böyük Ermənistan" dövləti yaratmaq, bu yolda nəyin bahasına olursa olsun bütün iyrənç əməllərdən, kütləvi terror, soyğunçuluq kimi alçaqlıqlardan istifadə etməklə özlərini yazıq, fağır, genosidə məruz qalmış xalq kimi göstərmişlər. İnsanlığa yaraşmayan hərəkətlərlə öz havadarlarının köməyi ilə birlikdə 1905-1907-ci illərdə əvvəlcə Bakıda, sonra isə Azərbaycanın digər ərazilərində həmvətənlərimizə qarşı soyqırımları həyata keçirmişlər. 1905-ci ilin fevral ayında Bakıda ermənilər tərəfindən aparılan soyqırımı, sonralar Gəncə, Qazax, Şirvan, İrəvan və başqa əraziləri də ahatə etmişdir. Bu müsibətlərdən sonra yenə də Azərbaycan ərazisində arsızcasına yaşayan ermənilər yeni planlar hazırlamağa başlamışlar. 1918-ci il 31 mart soyqırımı tarixdə görünməmiş ən amansız, ağlasığmaz dəhşətləri, fəlakətləri ilə daha geniş miqyas almışdır. Özlərini dünyaya "yazıq millət", "əzabkeş xalq" kimi qələmə verərək azərbaycanlılara qarşı kini, vəhşiliyi, milli soyqırımı Bakıda və digər ərazilərdə bolşevik adı ilə pərdələnmiş Şaumyanın rəhbərlik etdiyi Bakı Kommunnası hökümətinin əli ilə həyata keçirirdilər. 1918-ci ilin soyqırımının təkcə hələ 3 günü ərzində 17 min azərbaycanlı məhv edilmiş, bütün müsəlman məhəllələri talanmış, "İsmailiyə" binası yandırılmış, bir neçə qəzet, jurnal redaksiyaları dağıdılmışdır. Bu işin adını bolşeviklər hökümətə qarşı çıxanlara cəza tədbiri kimi adlandırırdılar. Lakin bu soyqırım azərbaycanlılara qarşı törədilmiş ən amansız terror aktı idi. Əliyalın dinc əhaliyə qarşı amansız divan tutan "Daşnaksütyun" quldurları Bakıdakı milli qırğınla kifayətlənməyib Şamaxıda, Quba - Xaçmaz bölgələrində və digər ərazilərdə də azərbaycanlılara qarşı soyqırımı törətdilər. Hiylə, məkr, xəyanət, iyrənc əməllərə sahib olan ermənilərin xalqımıza qarşı apardığı soyqırımı siyasətinin 100 ildən artıq tarixi var. Mənfur düşmənin yalnız bir amalı var ki, Azərbaycan torpaqlarına sahib olub xalqımızı, mədəniyyət abidələrimizi vandalliqla məhv etsinlər. Qubada 162, Qarabağda 150 kəndi misli görünməmiş formada xarabaya çevirmiş, qırğınlar törətmiş ermənilər insanlıqdan kənar olduqlarını bir daha təsdiqlədilər. İnsanları öldürdükdən sonra meyitləri təhqir etmək faktı bir daha təsdiq edir ki, ermənilər həqiqətən də qaniçən, təcavüzkar, xəyanətkar, vicdansız terrorçu xislətə malikdir. Artıq bütün dünya ermənilərin kim olduğunu çox yaxşı bilir.

Hər il martın 31-i Azərbaycanda dövlət səviyyəsində azərbaycanlıların soyqırımı günü kimi qeyd edilir. 1918-ci il martın 31 tariximizdə baş vermiş ən faciəli hadisələri, xalqın yaddaşındakı qanlı səhifələri özündə əks etdirir. 1992-ci il 26 fevral 31 mart tarixini təzələyərək xalqımızın ürəyindəki ağır yaranı daha da dərinlətdi. Təqvimdə qara çərçivədə olan bu rəqəmlər xalqımızın tarixinin qanlı salnaməsidir. İllər ötsə də qan yaddaşımızda yaşayan bu faciələri, onun qurbanlarını bizimlə bərabər sonrakı nəsillər də ehtiramla yad edərək, heç vaxt unutmamalıdırlar. Düşmən bununla da XX əsrin əvvəli və sonunda mənfur, çirkin əməlləri ilə tarixdə siyasətini, o cümlədən xislətini bir daha göstərdi.

**İlhamə SEYİDOVA,**
**«Qəbələ»nin ştatdankənar müxbiri.**

## Qatarların sayı artırılacaq

"Azərbaycan Dəmir Yolları" QSC (ADY) Novruz bayramı ilə əlaqədar artan sərnişin tələbatının qarşılanması məqsədilə Bakı - Qəbələ - Bakı marşrutu üzrə 20 əlavə reys təyin edib. Artan sərnişin tələbatı nəzərə alınaraq, 20-31 mart tarixlərində Bakı-Qəbələ-Bakı marşrutu üzrə sürətli sərnişin qatarı hər gün saat 07:30-da Bakı Dəmiryol Vağzalından, saat 19:00-da isə Qəbələ Dəmiryol Vağzalından yola düşəcək. Hazırda Bakı - Qəbələ - Bakı sürətli sərnişin qatarı həftənin şənbə günləri Bakıdan Qəbələyə, bazar günləri isə əks istiqamətdə hərəkət edir.

Bahar lövhələri.






QƏBƏLƏ qəzetinə

2025-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 20 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.


## Elanlar

*Soltannuxa bələdiyyəsinə mühasib vəzifəsinə işçi tələb olunur.*

*Yenikənd bələdiyyəsinə mühasib vəzifəsinə işçi tələb olunur.*

*Hacıalılı bələdiyyəsinə mühasib vəzifəsinə işçi tələb olunur.*

## İtmişdir

Qəbələ rayon Zarağan kənd sakini **Rəsulov Rahim Rəsul oğluna** məxsus 99 XN 998 nömrəli MERSEDES E 220 markalı minik avtomobilinin **texniki qeydiyyat şəhadətnaməsi itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Nohurqışlaq kənd sakini **Azakova (Səlimova) Sərgül Müxtəsər qızına** məxsus **doğum haqqında şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.


Redaktor Azad Məmmədov.

*TƏSİSÇİ:* Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 900*